# Nazir Qəbələdə 6 rayonun sakinləri ilə görüşüb








Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Qəbələdə bu rayonun, Şəki, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Səlim Müslümov rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Nazirliyin aidiyyəti struktur bölmələrindən rəhbər vəzifəli şəxslərinin iştirakı ilə vətəndaşların müraciətləri araşdırılaraq cavablandırılıb.

Qəbula gələn vətəndaşlar əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Vətəndaşların nazirliyin səlahiyyət dairəsinə aid olmayan məsələlərlə bağlı müraciətləri aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

**“Qəbələ”**

# Rayonumuzda daha bir beynəlxalq idman yarışı uğurla başa çatdı




***Qəzetimizin 9 iyun 2017-ci il tarixli nömrəsində məlumat verdiyimiz kimi iyun ayının 8-dən 14-ə qədər Gənclər və İdman Nazirliyinin dəstəyi, Qəbələ Atıcılıq Klubunun və Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı ilə Qəbələdə olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku uğrunda yarışlar keçirilib. Yarışlarda 45 ölkənin idmançıları iştirak edib.***



Yarışlara ən çox idmançı Çin Xalq Respublikasından gəlib. Otuz idmançı ilə yarışlara qatılan ÇXR-lə yanaşı Asiyanın digər ölkələri—Yaponiya, Hindistan, Cənubi Koreya və Tailand komandalarının da hər biri Dünya Kuboku yrışlarına 20-dən çox snayperlə gəlib. Avropa ölkələrindən Almaniyanın 21, Rusiya Federasiyasının, Polşanın 20 idmançısı mükafatlar uğrunda mübarizə aparıb. Vətənimiz Azərbaycanı bu mötəbər yarışda 10 nəfər idmançı təmsil edib.

Qeyd edək ki, bu mötəbər yarışda idmançılar tapança və tüfəngdən 10, 25 və 50 metr məsafəyə atəş açaraq hədəfi vurmaq uğrunda bacarıqlarını nümayiş etdiriblər. Çin komandası 4 qızıl, 3 gümüş və 1 bürünc medalla 45 ölkə arasında birinci yerdə qərarlaşıb. Avstriya və Danimarka komandaları isə II-III yerləri tutub. Yarış iştirakçıları, ümumilikdə, 10 dəst medal uğrunda mübarizə aparıblar. Dünya Kuboku yarışlarının Qəbələ mərhələsinin qalibləri bu ilin oktyabrında Hindistanda keçiriləcək final yarışında iştirak edəcəklər.



Yarışların qaliblərinə mükafatları Beynəlxalq Atıcılıq Federasiyasının nümayəndələri və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev təqdim edib.

**«Qəbələ»**

# Seminar keçirilmişdir



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qəbələ Rayon İcra Hakimiyyəti ilə birlikdə «Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi» mövzusunda seminar keçirmişdir.

Seminara müəllimlər, digər təlim-tərbiyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının və gənclərin nümayəndələri dəvət olunmuşdular.

Seminarı rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. Rayon icra hakimiyyəti ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Abdusalam Hüseynov rayondakı dini qurum haqqında, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov gənclərin dini radikalizmə qarşı mübarizə sahəsində maarifləndirilməsi mövzusunda çıxış etmişlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov «Dini radikalizm və gənclərin maarifləndirilməsi» və Dövlət Komitəsinin məsul işçisi Ruslan Əsgərov «İslam həmrəyliyi məsələləri» mövzusunda çıxış etmişlər.

Sonra seminarda dini və dünyəvilik məsələləri ilə əlaqədar bir sıra problemlərin müzakirəsi dialoq şəklində davam etmişdir.

Tədbiri RİH başçısının müavini Ətayə Osmanova yekunlaşdırmışdır.

**«Qəbələ»**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN İYUL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Laza kəndi | 04.07.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Sırt Yengicə kəndi | 11.07.2017 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Məlikli kəndi | 18.07.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Məmmədağalı kəndi | 25.07.2017 | Kənd məktəbi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.